# MƏDƏNİYYƏT NAZİRLİYİ MÜHARİBƏ VƏ POSTMÜHARİBƏ GÜNLƏRİNDƏ

Fransanın "Le Figaro" nəşrinin ölkənin bir qrup tanınmış mədəniyyət xadiminin Dağlıq Qarabağdakı erməni separatçılarını haqlı çıxarmağa çalışan müraciətinə cavab olaraq Mədəniyyət Nazirliyi bildirir ki, 30 ilə yaxın müddətdə Ermənistan BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrini icra etməyərək Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərini, Dağlıq Qarabağ və ona bitişik yeddi rayonu işğal altında saxlayıb. Bu yolverilməz davranışın fəsadı olaraq 46 milyon kitab fonduna malik 927 kitabxana, 808 mədəniyyət sarayı, klub mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən çox eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, 200-dən artıq tarix və mədəniyyət abidəsi vandalizmə məruz qalıb. Mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətli unikal abidələrimizə bu cür barbarcasına münasibət dünya irsinə qarşı yönəlmiş təhdid kimi dəyərləndirilmək əvəzinə müvafiq dəlillər və faktlara, araşdırmalara əsaslanmayan müraciətə tanınmış mədəniyyət xadimlərinin qoşulması onların erməni separat təbliğatının alətinə çevrildiyindən xəbər verir. Nazirlik həmin şəxsləri işğaldan azad olunmuş ərazilərimizə dəvət edib.

***



*Azərbaycan Respublikası mədəniyyət nazirinin vəzifələrini icra edən Anar Kərimov UNESCO-nun və İSESCO-nun baş direktorlarına müraciət edib. Müraciətdə 30 ilə yaxın müddətdə işğal altında qalmış və yenicə azad edilmiş ərazilərimizdə mədəni irsə dəymiş ziyanın müəyyənləşdirilməsilə bağlı monitorinqin ilkin nəticələri diqqətə çatdırılıb. Qeyd olunub ki, tarixi və mədəni irsin dağıdılması müvafiq beynəlxalq konvensiyaların tələblərinin kobud şəkildə pozulması və bəşəriyyətə qarşı törədilmiş cinayətdir. Müraciətdə o da vurğulanıb ki, ölkəmizdə tarixən mövcud olmuş multikultural və tolerant cəmiyyətin inkişaf etdirilməsi bu gün dövlət siyasətinin əsas istiqamətlərindəndir.*

***

ABŞ-da fəaliyyət göstərən Harvard İncəsənət Muzeylərinin (Harvard Art Museums) veb-saytının rəqəmsal kolleksiyalar bölməsində Qarabağ xalçasının erməni mədəniyyəti kimi təqdimatı barədə Mədəniyyət Nazirliyinə məlumat daxil olmuşdu. Mədəniyyət Nazirliyi tərəfindən həmin "Talış xalçası"nın toxunduğu məkanın artıq Azərbaycan olaraq göstərildiyi aşkarlanıb. Məsələ ilə bağlı Harvard İncəsənət Muzeyləri Şəbəkəsi ilə əlaqə saxlanılmış və muzeyin rəqəmsal kolleksiyalarında səhvən erməni mədəniyyəti nümunəsi kimi təqdim olunmuş 1860-cı illərə aid "Talış xalçası"nın toxunduğu məkan bölməsində müvafiq düzəlişə görə qarşı tərəfə təşəkkür edilib. Eləcə də Harvard İncəsənət Muzeylərinə həmin xalçanın mənşəyi barədə tarixi arayış göndərilib. Eyni zamanda, bu ilin noyabr ayında "Azərbaycan ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10-cu ildönümü barədə məlumat da verilib. Harvard İncəsənət Muzeylərində qorunan xalçaların atribusiyasının aparılması ilə bağlı hər zaman əməkdaşlıq etməyə hazır olduğumuz diqqətə çatdırılıb.



***

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2020-ci il tarixli 1170 nömrəli Fərmanından irəli gələn məsələlərin, o cümlədən tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi ilə bağlı vəzifələrin icrasının təmini məqsədilə işğaldan azad edilmiş ərazilərdə xüsusi idarəetməni həyaya keçirən müvəqqəti komendantlıqlar üzrə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyəti ilə bağlı yaradılmış Koordinasiya qrupunun 25 noyabr 2020-ci il tarixində videoformatda iclası keçirilib.




***

*İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) "Başər sivilizasiyasının qurulmasında və sülh dəyərlərinin yayılmasında İslam incəsənətinin rolu" mövzusunda beynəlxalq onlayn vebinarı keçirilib. İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri İslam incəsənətinin zənginliyindən, onun başər sivilizasiyasının formalaşmasındakı rolundan, İSESCO-nun İslam irsinin qorunması istiqamətində fəaliyyətindən danışıb.*

***



Rusiya Federasiyasının bir qrup mədəniyyət xadimi Qarabağda yerləşən xristian irsinin qorunmasına və bu irsin UNESCO-nun Dünya İrsi Siyahısına salınmasına kömək göstərməsi ilə bağlı təşkilata ünvanladığı müraciətin qeyri-adekvatlığına, Dağlıq Qarabağ və ətraf rayonlarda erməni işğalı zamanı çoxsaylı müsəlman irsi abidələrinin dağıdılmasına baxmayaraq, müraciətdə yalnız xristian irsi haqqında bəhs edilməsi, eləcə də Azərbaycan ərazisindəki bütün tarixi, mədəni, dini irsə heç bir ayrı-seçkilik qoyulmadan dövlət tərəfindən qorunması və hökumətin bu məsələyə çox ciddi yanaşması nəzərə alınmayaraq müraciətin birbaşa UNESCO-ya ünvanlanması onun qərəzli və məqsədli şəkildə hazırlandığını və ölkəmizə qarşı qarayaxma olduğunu göstərir. Məsələ ilə bağlı Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini, mədəniyyət nazirinin vəzifələrini icra edən Anar Kərimov tərəfindən müraciəti imzalayan mədəniyyət xadimlərinə məktub göndərilib. Məktubda Ermənistanın nəinki işğalçı, həm də barbar davranışına dəlillər göstərilib. Paralel olaraq Azərbaycan ərazisində yerləşən həm dini (müsəlman, xristian, yəhudi), həm də mədəni irsin dövlət tərəfindən qorunması ilə bağl faktlar diqqətə çatdırılıb. Müraciəti imzalayanlara erməni təbliğatının alətinə çevrilməmək tövsiyə olunub və rusiyalı mədəniyyət xadimləri Azərbaycana dəvət ediliblər.

***

*İtaliyadan satın alınan qədim xalçalarımızın təqdimatı və Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeyinin 40 illik yubiley tədbirində Milli İncəsənət Muzeyində İtaliyanın Sartirano yarmarkasından vətənə gətirilən XVII-XIX əsrlərə aid elmi, bədii, tarixi və muzey əhəmiyyəti kəsb edən 3 ədəd unikal Azərbaycan xalçasından Qarabağ xalça qrupuna aid "Çələbi" xalçası Milli Xalça Muzeyinin Şuşa filialına, "Quba" xalçası Milli Xalça Muzeyinə, Qarabağ xalça qrupuna aid olan digər orijinal xalça isə Milli İncəsənət Muzeyinə təhvil verilib. Xalçaların satın alınaraq ölkəmizə qaytarılması Azərbaycan Respublikasını Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən daim diqqət və qayğı göstərilən xalçaçılıq sənətinin inkişafı, beynəlxalq arenada tanıdılması, dünya şöhrətli muzeylərdə qorunan Azərbaycan xalçalarına düzgün atribusiyanın verilməsi, xarici hərrac və auksionlarda satışa çıxarılan*






*Proqramı"nın 7.1.7 bəndinə (yüksək keyfiyyətli, bədii əhəmiyyətli, həmçinin nadir xalçaların satın alınması ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi) əsasən bu xalçaların alınması xüsusilə böyük əhəmiyyət daşıyırdı.*

*xalçalarımızın alınaraq ölkəmizə geri qaytarılması istiqamətində mühüm işlər görülür. Dövlət başçısının 28 fevral 2018-ci il tarixli sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət*

*Yaranmasının 40 illiyi məhz Zəfər ilinə təsadüf edən Cəbrayıl Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1990-cı illərin əvvəllərində erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı eksponatlarının böyük əksəriyyətini xilas edən yeganə muzeydir.*

***

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dekabrın 15-də qəbul etdiyi BƏYANATda deyilir ki, 27 sentyabr–10 noyabr tarixlərində davam edən Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı zəfərin nəticəsi olaraq Kəlbəcər rayonu da noyabrın 25-də Ermənistan işğalçı qüvvələrindən azad edildikdən sonra işğalçı qüvvələr Kəlbəcər rayonunu tərk edərkən Xudavəng monastır kompleksinin talan edilərək kompleksə məxsus olan xaçların, zənglərin və digər elementlərin Ermənistana daşındığı barədə məlumatlar yayılmışdır.

Bu günlərdə Ermənistan mediasında yer alan xəbərlər bunu təsdiqləyir. Bildirilir ki, dekabrın 16-da Ermənistan paytaxtındakı Xalq Sənətləri Muzeyində "Dadivankdan Yerevana" adlı satış-sərgi keçiriləcək (https://bit.ly/3qXSesb). Sərgidə Dadivank (Xudavəng) monastr kompleksindən gətirilmiş Bibliya, xaçlar, ikonalar, suvenirlər, həmçinin kitablar, fotoalbomlar nümayiş olunacaq.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yayılan bu məlumatlarla bağlı bir daha diqqətə çatdırır ki, UNESCO-nun 1970-ci il Konvensiyası mədəniyyət sərvətlərinin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilmiş tədbirləri, eləcədə 1954-cü il Haaqada qəbul edilən "Silahlı münaqişələr zamanı mədəni abidələrin qorunmasına dair Konvensiya"sı işğalçının üzərinə işğal edilmiş ərazilərdə mülkiyyətin oğurlanmasının qarşısının alınması istiqamətində addımlar atma öhdəliyi qoyur. Xüsusilə Ermənistanın Azərbaycan torpaqlarını işğalı kontekstində Haaqa Konvensiyasının İkinci Protokolunun 9-cu bəndi işğalda iştirak edən tərəfin "işğal edilmiş ərazilərə münasibətdə" mədəni mülkiyyətin qanunsuz ticarəti, bu ərazilərdən çıxarılması, abidələrin mədəni, tarixi və ya elmi sübut xüsusiyyətinin dəyişdirilməsi və ya dağıdılmasının qadağan etməsi və qarşısının almasını təsbit edir.

Məlumat üçün bildidirik ki, Kəlbəcər rayonunun Vəng kəndi ərazisində Xudavəng monastr kompleksi qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının xristian memarlığının ən böyük və ən gözəl abidələrindən biridir. Kəlbəcər rayonu 1993-cü ildə Ermənistan tərəfindən işğal olunduqdan sonra Xudavəng monastr kompleksi erməni abidəsi kimi dünyaya təqdim edilməyə başlanmışdır.

**Elnarə**